**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətcisi Razi Məmmədovun 9 yanvar 2020-ci il tarixdə Naxçıvan Dövlət radiosunda verdiyi müsahibə**

**Sual 1.**

**Ötən dövr ərzində dövlət qulluğunun xüsusi növünə aid orqanlar tərəfindən elan edilmiş müsabiqələrin test mərhələləri nə zaman keçirilmişdir.**

27-31 may 2019-cu il tarixlərdə Dövlət Gömrük Komitəsinə xidmətə qəbul ilə əlaqədar 35 vakant vəzifənin tutulması üçün keçirilmiş test imtahanlarında iştirak edən 175 namizəddən 85-i, 13-14 iyun tarixlərində Vergilər Nazirliyində 33 vakant vəzifənin tutulması üçün 54 namizəddən 18-i, 25-28 sentyabr tarixlərində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində 30 vakant vəzifənin tutulması üçün 78 namizəddən 22-si, 27 iyun tarixində Vəkillər Kollegiyasının üzvlüyünə qəbul üçün 11 namizəddən 7-si müvafiq keçid balını toplamışdır. Ədliyyə orqanlarında 10 vakant vəzifənin tutulması üçün 29 oktyabr tarixində elan edilmiş müsabiqənin test imtahanlarının növbəti ildə keçirilməsi nəzərdə tutulmuşdur.

**Sual 2.**

**Cari ildə hansı inzibati rəhbər (idarəetmə) vəzifələrin tutulması üçün test imtahanları keçirilmişdir.**

Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən müvafiq dövlət orqanlarının təkrar müraciətləri nəzərə alınmaqla vakant aparat rəhbəri, şöbə və sektor müdiri vəzifələrinin tutulması üçün 38 nəfərin iştirakı ilə test imtahanları keçirilmişdir. Bunlardan 16 nəfəri (Ali Məhkəmədən 2, Fövqəladə Hallar Nazirliyindən 1, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən 4, Kənd Təsərrüfatı Nazirliyindən 1, Maliyyə Nazirliyindən 1, Səhiyyə Nazirliyindən 1, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsindən 1, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsindən 1, Dövlət Statistika Komitəsindən 1, Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyadan 1, Dövlət Baytarlıq Xidmətindən 1 və Turizm Departamentindən 1) test imtahanlarında müvəffəqiyyət qazanmışdır.

Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən müvafiq dövlət orqanlarında vakant aparat rəhbəri, şöbə və sektor müdiri vəzifələrinin tutulması üçün test imtahanından keçid balını toplamış 13 nəfərin (Ali Məhkəmədən 2, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən 4, İqtisadiyyat Nazirliyindən 1, Kənd Təsərrüfatı Nazirliyindən 1, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsindən 1, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsindən 1, Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyadan 1, Dövlət Baytarlıq Xidmətindən 1 və Turizm Departamentindən 1 müsahibəsi keçirilmişdir.

**Sual 3.**

**2019-cu il ərzində ehtiyat kadrlar siyahısında olan neçə nəfər işlə təmin olunmuşdur?**

Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən ehtiyat kadrlar siyahısında əvvəlki illərdən qalan 17 namizəddən 6-sı hesabat dövründə işlə təmin olunmuş və 4 namizədin siyahıda saxlanma müddəti bitmişdir. Siyahıda olan digər namizədlərin işlə təminatı həyata keçiriləcəkdir.

**Sual 4.**

**Bəs test imtahanlarında uğur qazanmış neçə namizədə Sertifikat verilmişdir**?

Qanunvericiliyə uyğun olaraq 2019-cu il ərzində Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən keçirilmiş test imtahanlarında uğur qazanmış 536 nəfərə Sertifikat verilmişdir.

**Sual 5. Cari ildə müəllimlərin dövlət ümumtəhsil müəssisələrinə işə qəbulu ilə bağlı nə deyə bilərsiniz?**

Hesabat dövründə şahmat fənnini tədris edən müəllimlərin sertifikasiyası üzrə test imtahanları keçirilmişdir. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən dövlət ümumi təhsil müəssisələrində və şahmat məktəblərində şahmat fənnini tədris edən müəllimlərin sertifikasiyası üzrə test imtahanları 11-14 fevral və 6 sentyabr 2019-cu il tarixlərdə keçirilmişdir. Qeydiyyatdan keçmiş 553 müəllimdən 538-i test imtahanında iştirak etmiş və 487-si müvafiq keçid balını (20 bal) toplamışdır.

Dövlət ümumi təhsil müəssisələrində çalışan müəllimlərin bilik və bacarıqlarının qiymətləndirilməsi və işə qəbulu üçün müsabiqə elan edilmişdir. 13-18 may 2019-cu il tarixlərdə müəllimlərin bilik və bacarıqlarının qiymətləndirilməsinin aparılması üçün test imtahanları keçirilmiş, imtahana buraxılan 120 nəfərdən 109-u test imtahanında iştirak etmiş və onlardan 85-i müvafiq keçid balını (24 bal) toplamışdır.

21 iyun 2019-cu il tarixdə müəllimlərin dövlət ümumi təhsil müəssisələrinə işə qəbulu üçün elan edilmiş müsabiqəyə 302 vakant vəzifə çıxarılmış, 14 avqust - 4 sentyabr tarixlərində keçirilmiş test imtahanlarında 576 namizəd iştirak etmiş, 235 namizəd keçid balını toplamışdır. Keçid balını toplamış namizədlərin sənədləri işə təyinat üçün Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyinə göndərilmişdir.

6 noyabr 2019-cu il tarixdə müəllimlərin dövlət ümumi təhsil müəssisələrinə işə qəbulu üçün elan edilmiş müsabiqəyə 229 vakant vəzifə çıxarılmışdır. Müsabiqənin tet imtahanlarina 9 yanvar 2020-ci ildən start verilib.

Naxçıvan Muxtar Respublikasının dövlət ümumi təhsil müəssisələrində vakant psixoloq, laborant, kitabxana müdiri, kitabxanaçı, tərbiyəçi və uşaq birliyi təşkilatının rəhbəri vəzifələrinə işə qəbul üçün 4 sentyabr 2019-cu il tarixdə elan edilmiş müsabiqədə 148 vakant vəzifənin tutulması üçün 225 namizəd sənəd təqdim etmişdir. 31 oktyabr-7 noyabr tarixlərində keçirilmiş test imtahanlarında 220 namizəd iştirak etmiş və onlardan 120-si müvafiq keçid balını toplamışdır. Keçid balını toplamış namizədlərin sənədləri işə təyinat üçün Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyinə göndərilmişdir.

Hesabat dövründə Naxçıvan Muxtar Respublikasının dövlət musiqi təhsili müəssisələrinə işə qəbul üçün test və müsahibə mərhələləri keçirilmişdir. 3 iyul 2019-cu il tarixdə elan edilmiş müsabiqədə 285 vakant vəzifənin tutulması üçün 82 namizəd sənəd təqdim etmişdir. 9-11 sentyabr tarixlərində keçirilmiş test imtahanlarında 80 namizəd iştirak etmiş və onlardan 20-si müvafiq keçid balını toplamışdır. Namizədlərin praktiki hazırlığı və ifaçılıq qabiliyyətinin yoxlanılması üçün 23 sentyabr tarixində keçirilən müsahibə mərhələsində 18 namizəd iştirak etmiş, onlardan 16-sı müvəffəqiyyət qazanmışdır. Müvəffəqiyyət qazanmış namizədlərin sənədləri işə təyinat üçün Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyinə göndərilmişdir.

18 oktyabr 2019-cu il tarixdə dövlət musiqi təhsili müəssisələrinə işə qəbul üçün elan edilmiş müsabiqəyə 186 vakant vəzifə çıxarılmış, 25-26 dekabr tarixlərində keçirilmiş test imtahanlarında 60 namizəd iştirak etmiş, 13 namizəd keçid balını toplamışdır.

**Sual 6.**

**Hesabat dövründə Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın test bazasının yeni suallarla zənginləşdirilməsinin və testlərin ekspertizasının davam etdirilməsi həyata keçirilibmi?**

Test imtahanı zamanı namizədlərin bilik səviyyəsinin daha ətraflı yoxlanılması, il ərzində qanunvericiliyə edilmiş əlavə və dəyişikliklərin test suallarında öz əksini tapması məqsədi ilə test bankı təkmilləşdirilmişdir. Belə ki, Azərbaycan dili üzrə 444, qanunvericilik üzrə 450 və məntiqi təfəkkürün yoxlanılması üzrə 500 yeni sual hazırlanmış və ekspertizadan keçirilərək test bankına işlənmişdir.

Dövlət qulluğunun xüsusi növünə aid olan orqanlara qəbul üçün keçirilən test imtahanlarının təşkil edilməsi məqsədilə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti üzrə 509, Dövlət Gömrük Komitəsi üzrə 1200, Vergilər Nazirliyi üzrə 331, Vəkillər Kollegiyası üzrə 1069, müəllimlərin işə qəbulu üzrə 700 və dövlət musiqi təhsili müəssisələrinə işə qəbul üzrə 3291 sual test bankına işlənmişdir. Ümumilikdə 2019-cu il ərzində 8494 sual test bankına işlənmişdir.

**Sual 7.**

**Ötən dövür ərzində hazırlıq kurslarında və sınaq imtahanlarında neçə nəfər iştirak etmişdir?**

Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən təşkil olunmuş hazırlıq kurslarında 2019-cu il ərzində dövlət qulluğu, gömrük, vergi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti və eləcə də müəllimlərin işə qəbulu üzrə ümumillikdə 376 nəfər, həmçinin sınaq imtahanlarında 704 nəfər iştirak etmişdir.

**Sual 8.**

**Hesabat dövründə mətbuat və ictimaiyyətlə əlaqələrin təşkili ilə bağlı nə deyə bilərsiniz?**

Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın fəaliyyəti ilə bağlı əhali məlumatlandırılmış, qanunvericiliklə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyalar Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın rəsmi internet portalında yerləşdirilmiş və bu informasiyanın daimi yeniləşdirilməsi təmin edilmişdir. Dövlət Qulluğu Məsələləri üzrə Komissiya öz fəaliyyəti barədə, habelə dövlət qulluğu sistemi, hamilik, dövlət qulluğuna qəbul və bu sahədə tətbiq olunan yeniliklər, dövlət qulluqçularının etik davranış qaydaları və digər məsələlərlə bağlı təşkil edilən tədbirləri mütəmadi olaraq kütləvi informasiya vasitələri ilə ictimaiyyətə çatdırmışdır. Belə ki, “Şərq qapısı” qəzetində Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın keçirdiyi tədbirlərlə bağlı 61 məlumat, rayon qəzetlərində 13, Naxçıvan Televiziyasında 43 süjet efirə verilmişdir. Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın əməkdaşları 7 dəfə “Naxçıvanın Səsi” radiosunda, 7 dəfə Naxçıvan Dövlət radiosunda təşkil olunmuş müsahibələrdə iştirak etmişlər. Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın keçirdiyi 67 tədbir “Nuhçıxan” İnformasiya Agentliyində, 55 tədbir isə “naxcivanxeberleri.com” internet xəbər portalında işıqlandırılmışdır. Eyni zamanda Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın rəsmi internet portalı vasitəsilə 128, “Facebook” səhifəsi vasitəsilə 160 və “İnstagram” səhifəsi vasitəsilə isə 102 xəbər və elan olmaqla, ümumilikdə 643 məlumat ictimaiyyətə çatdırılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2019-cu il 22 iyun tarixli Sərəncamı ilə dövlət qulluğunda səmərəli fəaliyyətlərinə görə Naxçıvan Muxtar Respublikasının dövlət qulluqçuları təltif olunmuşdur. Sərəncama əsasən, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın sədri İsmayıl Qəribli "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif olunmuşdur.